

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 220 (21.881)
*21 noyabr 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az
Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan Prezident İlham Əliyev deyib ki, sizin səfəriniz bizim münasibətlərimizin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Biz ölkələrimizin dövlətlərarası münasibətlərindən çox məmnunuq. Bu münasibətlər praktiki olaraq bütün sahələri əhatə edir və çox yaxşı dinamikliyə malikdir. Dövlət başçıları səviyyəsində müntəzəm görüşlər keçirilir. Bu il bir neçə görüş keçirilib. Eləcə də xarici siyasət idarələrinin başçıları və müvafiq qurumların rəhbərləri mütəmadi olaraq görüşürlər. Bütün bunlar göstərir ki, münasibətlər yüksək səviyyədədir. Biz artıq bunu çoxdandır strateji tərəfdaşlar arasında münasibətlər kimi səciyyələndiririk və əminəm ki, gələcəkdə əməkdaşlıq potensialını gücləndirəcəyik.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də FIFA-nın prezidenti Gianni İnfantinonu və baş katibi Fatma Samouranı qəbul edib.

Gianni İnfantino FIFA-nın xatirə hədiyyələrini dövlətimizin başçısına təqdim edib.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında meliorasiya və su təsərrüfatı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Məmmədov Mübariz Ramiz oğlu – **"Əməkdar mühəndis"** fəxri adı ilə;

Abdullayev Cəlal Cəlil oğlu
Ələsgərzadə Fətulla Məhərrəm oğlu
Qasımov Vüqar Abdulla oğlu
Şahtaxtinski Elçin Kamil oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 noyabr 2017-ci il*

## Naxçıvanda "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib





Noyabrın 18-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilib.

Tədbirin aparıcıları Naxçıvanda ailə təsərrüfatlarının yaranması tarixindən və əhəmiyyətindən bəhs ediblər.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Ədalət Hüseynov festivalda çıxış edərək muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi, ailə təsərrüfatlarının yaradılması, daxili bazarın idxaldan asılılığının azaldılması, eyni zamanda ixrac imkanlarının artırılması istiqamətində görülən tədbirlərdən danışmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmiş, ailə təsərrüfatlarının fəaliyyəti ilə maraqlanmış, təsərrüfat sahibləri ilə söhbət etmiş, onların istehsal etdikləri məhsullardan almışdır.



Məlumat verilmişdir ki, festivala muxtar respublikanın bütün rayonlarından olan 284 ailə təsərrüfatı tərəfindən 14 növdə 249 çeşiddə 7538 qablaşdırılmış məhsul çıxarılmışdır. Naxçıvan qaymağı, xaması, qovurması, müxtəlif növ mürəbbə və şirniyyatları, Nehrəm pendiri, qatığı, Ordubad alanası, sucuğu, cəvizi, meyvə araqları, müxtəlif çeşidli ət və balıq məhsulları, eləcə də turşular, kompotlar, Naxçıvan təbiətinin nemətlərindən olan dərman bitkiləri festival iştirakçılarına təqdim olunurdu. Naxçıvanın zəngin mətbəx mədəniyyətinə malik olması tarixən bu ərazidə quru meyvəçiliyin inkişafına stimul vermişdir. Festivala ailə təsərrüfatları tərəfindən qablaşdırılmış alça, göycə, ərik, tut və digər meyvə quruları da çıxarılmışdı.

Muxtar respublikanın kəndlərində yaradılan müasir infrastruktur, istehsal olunan məhsulları sərbəst bazara çıxarmaq imkanları və göstərilən maliyyə dəstəyi bu sahəyə marağı xeyli artırmışdır. Hazırda muxtar respublikanın 87 kəndində böyük ailə təsərrüfatları vardır ki, onlar da əsasən heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə fəaliyyət göstərirlər. Bu ilin ötən dövründə Sahibkarlığa Kömək Fondu tərəfindən 10 ailə təsərrüfatına dövlət maliyyə dəstəyi göstərilmişdir. Bütün bunlar da ailə təsərrüfatlarının inkişafına, daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına, eləcə də istehsal olunan məhsulların ixracına geniş imkanlar açır.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının inkişafı üçün nəzərdə tutulan istehsal konteynerinə baxmışdır.

Bildirilmişdir ki, 4 işçi heyəti ilə təmin olunan konteyner pendir istehsalı üçün nəzərdə tutulub. Konteynerdə istehsal xətti yaradılmış, lazımi avadanlıqlar və hazır məhsulun saxlanması üçün soyuducu quraşdırılmışdır. Bu da standartların tələblərinə uyğun keyfiyyətli və müxtəlif ölçülü qablaşdırılmış pendir istehsalına imkan verəcəkdir.

Ali Məclisin Sədri ailə təsərrüfatlarının inkişafına bundan sonra da dəstək veriləcəyini bildirmiş, təsərrüfatlarda istehsal prosesinin elmi əsaslarla və sənaye yolu ilə təkmilləşdirilməsi, məhsulların əmtəə görünüşünə və qablaşdırılmasına diqqət yetirilməsi, hər bir rayon üzrə sifarişlərin qəbul olunması və istehsal profilinə uyğun konteynerlərin quraşdırılması, ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planının hazırlanması və icrası barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

Festival noyabrın 19-dək davam etmiş, iştirakçılar arasında "Ən yaxşı məhsul" nominasiyası üzrə müsabiqə keçirilmişdir.

Minlərlə şəhər sakininin və turistin iştirak etdiyi festivalda Naxçıvan Dövlət Filarmoniyasının kollektivi mahnılardan ibarət konsert proqramı ilə çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabının təqdimatı olub

*Noyabrın 17-də Tbilisi Açıq Universitetində azərbaycanlı alim, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru, Batumi Dövlət Universitetinin fəxri doktoru Rza Talıbovun gürcü dilində çapdan çıxmış "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabının təqdimatı keçirilib.*






AZƏRTAC xəbər verir ki, Azərbaycan və Gürcüstan arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunan tədbirlər çərçivəsində keçirilən təqdimat mərasimində Gürcüstanın nüfuzlu universitetlərinin alimləri, tələbələr, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Universitetin prorektoru Zaur Amilaxvari çıxışında Azərbaycan və Gürcüstan arasındakı qədim dostluq əlaqələrindən danışıb. Ötən əsrin 60-cı illərində Bakıda təhsil aldığını bildirən prorektor deyib ki, Azərbaycan ən ağır günlərində gürcü xalqının yanında olub. Bu gün də elektrik enerjisini, təbii qazı və digər resursları Azərbaycandan alırıq. Gürcüstanın inkişafında Azərbaycanın özünəməxsus rolu var. Bu gün ölkələrimiz arasında elm sahəsində də əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan Zaur Amilaxvari tələbələrə təqdim olunan kitabın əhəmiyyətindən danışıb. Bildirib ki, belə kitabların yazılması elm və təhsil sahəsində münasibətlərimizin inkişafında mühüm rol oynayır. O, Rza Talıbovun kitabını olduqca sanballı tədqiqat əsəri adlandırıb. Prorektor kitabın gürcü dilində nəşr olunmasında göstərdiyi dəstəyə görə Azərbaycan səfirliyinə təşəkkür edib.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxışında ölkələrimiz arasındakı qədim dostluq əlaqələrindən danışıb, xalqımızın ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində münasibətlərimizin yeni müstəvidə daha da inkişaf etdiyini vurğulayıb. Bildirib ki, Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Səfir diplomatik münasibətlərimizin 25-ci ildönümü ərəfəsində bu cür tədbirlərin keçirilməsinin, alimlərimizin əsərlərinin hər iki dilə tərcümə olunmasının vacibliyini qeyd edib. Bildirib ki, bu gün oxuculara təqdim olunan kitabda Çin Xalq Respublikasının dünya siyasətində mövqeyi, həmçinin Asiya ölkələri ilə əlaqələri, Azərbaycan-Çin əməkdaşlığı geniş tədqiq olunub. Bu da tələbələr və bu sahədə araşdırma aparmaq niyyətində olan tədqiqatçılar üçün fundamental mənbə rolunu oynaya bilər.

Tədbirdə digər çıxış edənlər elmi əsərin mahiyyətindən danışıblar. Bildirilib ki, Rza Talıbovun "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabı qitə ölkələrinin dünya siyasətində və beynəlxalq xarici əlaqələrdəki yerinin və əhəmiyyətinin, həm də Azərbaycan ilə əlaqələrinin dərindən tədqiq və təhlil edildiyi yüksək elmi-təcrübi əhəmiyyətə malik olan əsər kimi müasir siyasi elmimizin uğurlarından biri olmaqla yanaşı, beynəlxalq münasibətlər ixtisasında təhsil alan tələbələr, tədqiqatçılar, siyasətçilər, gənc müəllimlər üçün faydalı mənbədir.

Qeyd edək ki, kitab Çin, Yaponiya, Koreya Respublikası, Malayziya, Vyetnam kimi Asiya ölkələrinin dünya siyasətindəki yeri, rolu və mövqeyinə həsr olunub. Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik kimi təsdiq etdiyi "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabı ali məktəblərdə dərslik kimi istifadə edilir. Kitab MDB ölkələrinin bir çoxunun ali məktəblərində də tədris olunur.

**Xətayi ƏZİZOV**
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tbilisi***

***Azərbaycan dövlətinin nail olduğu ən böyük uğurların təminatçısına çevrilən Yeni Azərbaycan Partiyasının yaranmasından 25 il ötür. Tarixi vərəqlədikcə bir daha aydın olur ki, Yeni Azərbaycan Partiyasının yaradılmasını zəruri edən əsas səbəb Azərbaycanı üzləşdiyi mürəkkəb və fəlakətli vəziyyətdən xilas etmək istəyi ilə əlaqədar idi. Ona görə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan xalqı ən yeni tarixində fərqli vəziyyətlə üzləşmiş, Azərbaycan dövlət müstəqilliyinə qovuşmuş və xalqımız uzun illər həsrətində olduğu müstəqilliyini bərpa etmək imkanı qazanmışdı. Lakin 1990-cı illərin əvvəllərində cərəyan edən arzuolunmaz hadisələr və meydana çıxmış yeni reallıqların qiymətləndirilməməsi nəticəsində Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. İqtisadi sahədə tənəzzül, dövlət hakimiyyətində dərinləşən böhran, milli maraqlarımıza zidd addımların atılması, Dağlıq Qarabağ münaqişəsində ağır vəziyyətin yaranması və vətəndaş müharibəsi təhlükəsinin artması ölkədə ümumi vəziyyəti daha da gərginləşdirmişdi. Onilliklər ərzində yaradılmış iqtisadi potensial iflic vəziyyətinə salınmışdı.***

*Yeni Azərbaycan Partiyası - 25*

## Müstəqil Azərbaycanın aparıcı siyasi qüvvəsi

Azərbaycanın xilası üçün güclü liderə və siyasi qüvvəyə ehtiyac duyulurdu. Belə siyasi qüvvə Azərbaycanın ağır dövründə, 1992-ci il noyabrın 21-də meydana çıxdı. 1992-ci il oktyabrın 24-də ziyalıların "Səs" qəzetində ulu öndər Heydər Əliyevə "Azərbaycan sizin sözünüzü gözləyir" başlıqlı müraciətinə cavab məktubunda ümummilli liderin yaranmış vəziyyəti dərindən təhlil etməsi və çıxış yolunu göstərməsi noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirdi. Ölkəmizin ayrı-ayrı bölgələrindən cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda partiyanın təsis konfransının keçirilməsi və ulu öndərin partiyanın sədri seçilməsi tarixi əhəmiyyətli addımlardan biri idi. Ona görə ki, real təhlükəni görən xalq ümummilli lider Heydər Əliyevin rəhbəri olduğu siyasi qüvvənin xilaskar missiya üçün yarandığını bilir və Yeni Azərbaycan Partiyasının təsis edilməsinə dəstək verirdi.

Ulu öndər Heydər Əliyevin 1993-cü il oktyabr ayının 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi Yeni Azərbaycan Partiyasının fəaliyyətində yeni dövrün əsasını qoydu. Belə ki, Yeni Azərbaycan Partiyasının iqtidar partiyası kimi ölkənin siyasi həyatında oynadığı rol güclənmiş və aparıcı siyasi qüvvəyə çevrilərək ictimai-siyasi həyatın bütün sahələrində yüksək fəallıq nümayiş etdirməyə başlamışdı. Keçirilən bütün seçkilərdə Yeni Azərbaycan Partiyası üzvlərinin üstünlük qazanmaları partiyaya olan ümumxalq inamını bir daha təsdiqləmişdir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi və müdrikliyi sayəsində Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın nüfuzlu siyasi təşkilatına çevrilmişdir.

Heç kimə sirr deyil ki, Yeni Azərbaycan Partiyasının gücü məhz ulu öndər Heydər Əliyevin ideyaları əsasında meydana gəlməsindədir. Yarandığı gündən bəri ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən ən mühüm amillərdən biri də təməl prinsiplərinin ulu öndərin ideyalarına əsaslanmasıdır. Bunlar müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalətdir. Ümummilli lider Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıdışından sonra bu prinsiplər Yeni Azərbaycan Partiyasının qarşısında duran tarixi vəzifələrin həyata keçirilməsinin ideoloji təminatı kimi mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirdi.

Təbii ki, varislik prinsipi, eyni zamanda müstəqil dövlətimizin inkişafı üçün başlanan siyasətin davamlı olmasıdır. Məhz bu ali məqsədin reallaşması naminə ümummilli liderimiz Heydər Əliyev böyük çətinliklərlə qurduğu dövləti rəhbərlik etmək üçün layiqli namizədini elan etdi: ***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Bu fikirlərin məntiqi nəticəsi İlham Əliyevin 2003-cü ilin 15 oktyabrında xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq ölkə Prezidenti seçilməsi oldu. 2005-ci ilin mart ayında isə Yeni Azərbaycan Partiyasının III Qurultayı keçirildi. Qurultayda təşkilati məsələlərə baxıldı və Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədrinin birinci müavini İlham Əliyev partiyanın Sədri seçildi. Beləliklə, İlham Əliyevin Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başlandı.

Bu tarixdən başlayaraq, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, uğurlu neft strategiyasının həyata keçirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, ölkənin təhlükəsizliyini təmin etmək iqtidarında olan ordunun yaradılması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirildi və bu prosesdə Yeni Azərbaycan Partiyası daim ön sırada yer aldı. Yeni Azərbaycan Partiyası üzvləri ölkəmizin daha da güclənməsi naminə partiyamızın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən fəal dəstəkçiləri olmaqla bu siyasətin uğurlarını xalq arasında geniş təbliğ etməkdədir.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan möhtəşəm inkişaf yolu keçmişdir. Müstəqil iqtisadiyyatımız, böyük valyuta ehtiyatlarımız, iqtisadiyyatımızın uğurlu inkişafı, bir sıra mühüm layihələrin həyata keçirilməsi əlamətdar hadisə olmaqla bərabər, eyni zamanda ölkəmizə əlavə güc verir. Onu da qeyd etmək lazımdır ki, İlham Əliyevin Yeni Azərbaycan Partiyasının Sədri seçilməsindən sonra kəmiyyət və keyfiyyət baxımından partiyada əhəmiyyətli dərəcədə dəyişikliklər müşahidə olunur. Faktlara diqqət yetirdikdə ötən müddət ərzində Heydər Əliyev ideyalarına söykənən partiyamızın ilbəil güclündiyinin bir daha şahidi olarıq. Belə ki, əgər Yeni Azərbaycan Partiyasının 2001-ci ildə keçirilmiş II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Hazırda isə partiyamızın üzvlərinin sayı 700 mindən çoxdur.

Ümumbəşəri dəyərlərin daşıyıcısı olan Yeni Azərbaycan Partiyası bir tərəfdən beynəlxalq aləmdə siyasi əməkdaşlıq, sivilizasiyaların dialoqunun tərəfdarı kimi çıxış edirsə, digər tərəfdən milli birliyin möhkəmləndirilməsi, Azərbaycançılıq ideologiyasının təbliği və inkişafı istiqamətində mühüm işlər görür. Bütün bunlar partiyanın dünyanın tanınmış siyasi təşkilatları arasında nüfuzunu yüksəldir, Azərbaycan cəmiyyətindəki mövqeyini möhkəmləndirir, siyasi qüdrətini artırır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük bir fenomendir. Çətin şəraitdə, təzyiqlərlə, hədə-qorxularla üzləşərək, bütün məhrumiyyətlərlə üzləşərək, həm partiya üçün, həm partiya fəalları, həm də ölkə üçün, demək olar, ən ağır dönəmdə yaranan bu partiya möhkəmləndi, gücləndi və bu gün bölgədə onun analoqu yoxdur. Nəinki Azərbaycanda, qonşu ölkələrdə də Yeni Azərbaycan Partiyası kimi güclü, mütəşəkkil qüvvə yoxdur".***

Yeni Azərbaycan Partiyasının məhz Naxçıvanda yaranması, partiyanın rəhbəri, ulu öndər Heydər Əliyevin xalqın çağırışı və təkidli tələbləri ilə Azərbaycanda siyasi hakimiyyətə buradan qayıdışı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təşəkkül tapıb formalaşmasında müstəsna rol oynamışdır. Ümummilli liderimizin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla hər bir partiya üzvü muxtar respublikamızda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edir. Hazırda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 53 mindən artıq üzvü vardır. Üzvlərinin say tərkibinin əsas hissəsi ziyalılar, gənclər və qadınlar olan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı muxtar respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir.

Bu gün dahi rəhbərin arzuları inamla həyata keçirilir. Bunun bariz nümunəsidir ki, Naxçıvan Muxtar Respublikası böyük inkişaf yolu keçib. Ötən illər ərzində muxtar respublikanın inkişafını təmin etmək məqsədilə icrası uğurla başa çatan və hazırda icrası davam etdirilən dövlət proqramları ümumi inkişafa təkan verib, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlayıb. Ötən illər ərzində muxtar respublikada tikinti-quruculuq işləri geniş vüsət alıb, nəhəng istehsal müəssisələri, çoxsaylı yaşayış binaları, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilib, yeni iş yerləri açılıb. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, gözəlləşdirib.

Naxçıvan Muxtar Respublikasında Yeni Azərbaycan Partiyasının yaranmasından ötən 25 il ərzində əldə olunmuş uğurlar və nailiyyətlər Heydər Əliyev yoluna sarsılmaz sədaqətin göstəricisinə çevrilmiş, muxtar respublikada iqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam etmişdir.

Bu gün əminliklə demək olar ki, yaradıcısı ümummilli lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Heydər Əliyevin ideya və arzuları yaşayır. Yeni Azərbaycan Partiyası bu günün və gələcəyin siyasi partiyası kimi ölkəmizin – Azərbaycanın inkişafına güclü təsirini bundan sonra da davam etdirəcəkdir.

***Yeni Azərbaycan Partiyası***
***Naxçıvan Muxtar Respublika***
***Təşkilatının İcra Katibliyi***

*Xalq yaradıcılığı*

# Uşaq folkloru: dünənimiz, bu günümüz, sabahımız

## *Uşaq oyunları niyə lazımdır?*

*Çoxəsrlik tarixə malik, zəngin xalq yaradıcılığı nümunələri içərisində uşaq ədəbiyyatı xüsusi yer tutur. Folklor nümunələri müxtəlif yaş qruplarına daxil olan uşaqların tərbiyəsi üçün dəyərli bir mənbədir. Bütün bunlara görə, Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı nümunələrinin toplanması, öyrənilməsi və nəşri məsələlərini diqqətə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir:* ***"Qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu yaradıcılıq nümunələri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirərək müasir dövrdə parlaq şəkildə nümayiş etdirir".*** *Bu baxımdan xalq yaradıcılığı nümunələri bütövlüklə, xalqın istək, arzu və ideallarını, həyata və dünyaya baxış müstəvisini özündə əks etdirir, xeyir və şər, gözəllik və eybəcərliklə bağlı düşüncələr burada başlıca yer təşkil edir.*








Bu yaradıcılıq nümunələrində yeni nəslin nümayəndələri, gələcəyimiz olan uşaqlar haqqında düşüncə və maraqlar diqqət mərkəzində saxlanılır. İstər nağıl, istər tapmaca, istərsə də atalar sözləri, lətifələr və başqa nümunələrdə uşaq dünyası ilə bərabər, nümunəvi uşaq tərbiyəsi barədə də fikirlər üstün yer tutur. Məhz buna görə də şifahi ədəbiyyat böyüklərdən daha çox kiçikyaşlı uşaqlar üçün mənəvi qida, tərbiyə mənbəyidir. Uşaqların xəyal dünyası və zəkasına, fikir, düşüncə və maraqlarına uyğun məqamların çoxluq təşkil etdiyi bu nümunələr onlara yeni dünya, yeni baxış və xəyal üfüqləri açır.

Tədqiqatçıların da dediyi kimi, folklor həm də uşaqların hərtərəfli inkişafına və yaradıcılıq qabiliyyətlərinin formalaşmasına təsir göstərir. Yalnız ideyalı bədii və xəlqi ədəbiyyat təmiz vicdanlı, güclü mənəviyyata malik, zamanın yükünü öz üzərinə götürə bilən insanlar tərbiyə edir. Mənbələrdə haqlı olaraq deyilir ki, xalq ədəbiyyatı nümunələrinin uşaqların tərbiyəsi üzərində olduqca mühüm bir rolu vardır. Nağıllar uşaqların tərbiyəsində sevgi, mərhəmət, vətənpərvərlik kimi duyğular oyandırır. Ananın hələ beşikdə ikən söylədiyi laylalar, oxşama və nazlamalar uşaqda özünəinam duyğusu yaradır. Tapmacalar, oyun oynayarkən söylənən sürətli dildönmələr (yanıltmaclar) uşaqların ana dilindən doğru istifadə alışqanlığı qazanmalarına təminat yaradır. Alimlər nağılların uşaq tərbiyəsindəki faydasını dəyərləndirərkən bunu xüsusilə qeyd etmişlər ki, nağıllar xalq sənətinin bənzərsiz ədəbi nümunələridir. Nağıllarda faydalı olmaq məqsədi birinci sırada durur. Hər qəhrəman bir xarakterin simvoludur. İnsanların hər əməlində bir ibrət dərsi gizlənib. Yaxşılar təriflənir, pislər tənqid olunur. Uşaqlar bu qəhrəmanlardan örnək seçərək onları qəlblərində yaşadırlar. Azərbaycanda uşaq folklorunun ən görkəmli tədqiqatçılarından olan folklorşünas alim Ramazan Qafarlı "Uşaq folklorunun janr sistemi və poetikası" adlı monoqrafiyasında yazır: "Bəzi ədəbiyyatlarda "folklorun kiçik, xırda janrları" kimi qeyd olunan laylalar, oxşamalar, dilaçmalar, öyrətmələr, sanamalar, düzgülər, yanıltmaclar, çağırışlar, müraciətlər bütün zamanlarda xalq pedaqogikasının tələblərini ödəmiş və uşaq dünyasının bütün cəhətlərini şirinliyi, duzluluğu ilə əks etdirmişdir. Xalq pedaqogikası, sözün əsl mənasında, tərbiyə məsələləri üzrə zəhmətkeş kütlələrin baxış, fikir, ideya, əməli təcrübə, qanun-qayda, adət və ənənələrinin toplusudur".

Uşaq ədəbiyyatı nümunələrinin hər bir janrı ayrıca tərbiyə və təlim əhəmiyyətinə malikdir. Yanıltmaclarda məqsəd insanlara əcaib gələn, gerçək həyatda olması mümkün olmayan hadisə və vəziyyətləri ard-arda sıralayaraq ağıl və məntiqdən uzaq nəticələrə varmaq və heyrətamiz bir təsir yaratmaqdır. Bu səbəblə yanıltmaclar bir cür söz oyunudur. Yanıltmaclar heyrətləndirir və əyləndirir, vaxtın əyləncəli keçirilməsinə şərait yaradır. Yanıltmacların uşaqların davranışlarının inkişafına güclü təsirləri də vardır. Yanıltmaclar uşaqların zəka, bilik, duyğu və davranışlarını inkişaf etdirir. Uşaqları sosial yöndən də formalaşdırır və paylaşmağı bacaran keyfiyyətlər bəxş edir. Yanıltmaclar uşaqların ana dilindən gözəl, səlis və doğru biçimdə istifadə bacarıqlarını inkişaf etdirir, yetkinləşdirir, onlarda sevgi hissləri formalaşdırır. Uşağın söz ehtiyatını zənginləşdirmək baxımından da yanıltmac və təkrarləmələrin böyük rolu vardır. Bu nümunələr uşaqların fantaziya və xəyal aləmlərinin inkişafı, zənginləşməsinə də öz töhfələrini verir. Həmçinin bəhs olunan bu uşaq folkloru nümunələri uşaqlara ictimaiyyət qarşısında çıxışetmə və nitq qabiliyyəti də aşılayır.

Tapmacalar kurikulum üzrə uşaqlara əqli inkişafa xidmət edən məsələləri öyrətməkdə faydalıdır. Bu nümunə uşaqları naməlum əşyanın əlamətlərinə görə tapmağı, hesablama aparmaq qabiliyyətinə malik olmağı, hadisə və əşyalar arasında assosiativ əlaqə və fərqlilikləri bilməyi öyrədir ki, bu da uşaqların xəyal dünyasını və əqlini inkişaf etdirməyə xidmət edir.

Bunlardan başqa, uşaq folkloru içərisində müxtəlif oyun növləri vardır ki, onlar uşaqların zəka və təfəkkürünün inkişafında əhəmiyyətli rol oynamaqla bərabər həm də əyləncə və istirahət üçün də bir vasitə kimi fiziki inkişafa faydalı təsir göstərir. "Bənövşə", "Qəcəmədaş", "Gizlənqaç", "Heybə", "Çilingağac" və başqa oyunlar uşaqların sevdikləri oyunlardandır. Bu oyunların hər biri uşaqların mənəvi dünyası və fiziki tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Tədqiqatçılar uşaqların dost və yoldaşları ilə oynamağa başladığı zaman ictimai əlaqə və münasibətləri də öyrəndiyini və oyunlarla birlikdə üzərinə götürdüyü yükün öhdəsindən gələ bilmək üçün məsuliyyət və cavabdehlik hisslərinin artdığını bildirirlər.

Uşaqların ictimailəşməsi üçün ən gözəl dəstəklərdən biri məhz oyunlardır. Alimlər oyunların uşaqların dil və nitq inkişafına mühüm təsir etdiyini, münasibətyaratma bacarıqlarını inkişaf etdirdiyini, onların paylaşma hisslərini gücləndirdiyini, ictimai qaydaları öyrənməsini və özünüifadə etməsini təmin etdiyini bildirirlər. Habelə oyunların uşaqları psixomotor yöndən, eləcə də fiziki cəhətdən böyük və kiçik əzələlərini inkişaf etdirdiyini, onu sevindirdiyini, stres atmasına kömək etdiyini qeyd edirlər. Oyunlar uşaqların yaradıcılıq duyğularının inkişafına imkan yaradır, onlarda mənsubolma duyğularını formalaşdırır. Komandalı oyunlar qruplarda davranışı, uşaqların çevrəsini, yoldaşlarını anlama və tanıma bacarıqlarını, xəyalqurma duyğularını inkişaf etdirir. Tədqiqatçıların fikrincə, belə uşaq folklor nümunələri müasir dövrdə gənc nəsli milli ruhda böyütmək üçün zəruri vasitədir.

Bəli, müdrik və uzaqgörən ata-babalarımız uşaqların gələcəyi, sağlam, düzgün təfəkkürü, nitq inkişafı kimi mühüm məsələlərə xüsusi diqqət ayırmış, sadə, şirin mətnlərlə uşaqların hərtərəfli tərbiyəsi üçün gözəl örnəklər yaratmışlar. Bu nümunələr indi milli folklor xəzinəmizin qiymətli fondunu təşkil edir. Təqdirəlayiq haldır ki, Azərbaycan folklorşünasları da Azərbaycan uşaq folkloru nümunələrini, eləcə də uşaq oyunlarını toplayaraq çap etdiriblər. Naxçıvanda da bu istiqamətdə müəyyən işlər görülüb. Xüsusilə AMEA Naxçıvan Bölməsinin Folklorşünaslıq şöbəsində mərhum folklorşünas alim Rafiq Babayevin rəhbərliyi altında toplanan və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə çapa təqdim edilən "Naxçıvan uşaq folklorundan örnəklər" kitabı da bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

***Naxçıvan Musiqi Kollecində kitabxana işinin təşkili və müasir tələblər üzrə ixtisasartırma kursunu bitirən kitabxanaçılara sertifikatlar təqdim edilib.***

# İxtisasartırma kursunu bitirənlərə sertifikatlar verilib



Tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, nazirlik tərəfindən mütəmadi olaraq kitabxana işi ilə bağlı maarifləndirici tədbirlər keçirilir. Kitabxanaçılara elmi-metodik köməklik göstərilir, onların peşəkarlığı artırılır. Kitabxanalarda müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi bu mədəniyyət ocaqlarına oxucu cəlbində mühüm rol oynayır. Ancaq əldə olunanlarla kifayətlənməməli, kitabxana işi müasir tələblər səviyyəsində qurulmalı, kitabxanaçılar dövrlə ayaqlaşaraq innovativ metodlara və texnologiyalardan istifadəyə üstünlük verməlidirlər.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il avqustun 28-də "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam imzalayıb. Sərəncamdan irəli gələn vəzifələrin icrası təhsil və mədəniyyət müəssisələrində diqqətdə saxlanılır, kitab müzakirələri, mütaliə və nağıl günləri, səyyar kitab sərgiləri təşkil edilir. Təbii ki, bu prosesdə öz işini yaxşı bilən kitabxanaçılar mühüm rol oynayırlar. Bu günədək kitabxana işçiləri üçün 4 dəfə ongünlük kurs təşkil edilib. Həmin kurslarda 106 nəfər iştirak edib ki, onlardan da 96 kitabxanaçıya sertifikatlar təqdim edilib. Kurslarda kitabxana işinin elmi əsaslarla təşkili və idarə edilməsi, oxu zallarında oxuculara göstərilən xidmətin yüksək səviyyədə təşkil olunması, kitabişləmə, kitab fondlarının yaradılması, biblioqrafiya işlərinin təşkili, ümumiyyətlə, kitabxana işi ilə əlaqədar olan bütün mövzular tədris edilib.

Daha sonra çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun rektoru, AMEA-nın müxbir üzvü Oruc Həsənli kitabxana işinin düzgün təşkilinin tədrisin keyfiyyətinə, kadr hazırlığı prosesinə əhəmiyyətli təsirindən bəhs edib.

Sonra kursu müvəffəqiyyətlə bitirən 16 kitabxanaçıya sertifikat təqdim edilib.

Məlumat üçün bildirək ki, kurs Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutu tərəfindən təşkil olunmuşdu.

**✍ Nail ƏSGƏROV**

# İnşa yazı müsabiqəsi yekunlaşıb



***Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Uşaq Hüquqları Haqqında Konvensiyanın və Uşaq Hüquqları Haqqında Bəyannamənin qəbul olunduğu günlə əlaqədar olaraq "Biz qayğı ilə böyüyürük" mövzusunda şagirdlər arasında keçirilən inşa yazı müsabiqəsinin yekun tədbiri keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və muxtar respublika Təhsil Nazirliyi tərəfindən IX-XI sinif şagirdləri arasında keçirilən müsabiqəyə son mərhələdə 19 yazı təqdim olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədovanın və muxtar respublika Təhsil Nazirliyinin şöbə müdiri Rüstəm Həsənovun çıxışları olub. Çıxışlarda ölkəmizdə, eləcə də muxtar respublikamızda uşaq hüquqları sahəsində həyata keçirilən tədbirlərdən danışılıb, onların istedadlarını, bacarıqlarını üzə çıxarmaq, dünyagörüşünü düzgün formalaşdırmaq, vətənpərvər ruhda yetişdirmək istiqamətində görülən işlərdən, bu sahədə qəbul olunan dövlət proqramlarının əhəmiyyətindən bəhs edilib.

Qeyd edilib ki, qaliblərin müəyyənləşdirilməsində əsas meyarlar inşa yazıların məzmunlu, əhatəli olması, fikir aydınlığı və səlrakonliyin qorunmasıdır. Sevindirici haldır ki, müsabiqəyə təqdim olunan yazı işlərinin əksəriyyətində məktəblilər mövzu ilə bağlı düşüncələrini aydın və müstəqil şəkildə ifadə edə biliblər. Bu da uşaqların mütaliəli, yaradıcı olmasından onlarda yazı mədəniyyətinin formalaşmasından xəbər verir.

Müsabiqənin nəticəsinə görə Sədərək kənd 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Gülnar Səlimli I yerə layiq görülüb. Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin IX sinif şagirdi Ayxan Ələkbərov II, Naxçıvan Qarnizonu tam orta məktəbinin IX sinif şagirdi Aytəkin Bağırova III yeri tutublar.

Qaliblərə diplom və hədiyyələr təqdim edilib.

**✍ Ramiyyə ƏKBƏROVA**

# Babək Rayon Mərkəzi Xəstəxanasında bir gündə 27 cərrahi əməliyyat aparılıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri ötən şənbə günü muxtar respublikanın müasir səhiyyə müəssisələrindən biri olan Babək Rayon Mərkəzi Xəstəxanasında 27 cərrahi əməliyyat aparıb, əhaliyə təmənnasız tibbi xidmətlər göstəriblər.

Həkim-cərrahlardan Abasət Hüseynəliyev, İsa Abdullayev, İlham İsmayılov, Nazim İbrahimov, İlhamə Əsgərova, anestezioloqlardan Ənvər Şıxəliyev, Zaur Həsənov, Aidə Məmmədovanın iştirakı ilə ambulator müayinələrdən keçmiş 50 xəstə üzərində cərrahiyyə əməliyyatları aparılıb. Cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr üzərində xolesistoektomiya, kistoektomiya, hemorroidoektomiya, hernioektomiya və başqa əməliyyatlar aparılıb.

Xəstəxanada spinal anesteziya ilə növbəti yırtıq əməliyyatı icra edilib. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıb.

Babək rayonunun Aşağı Buzqov kənd sakini Narıngül Qasımova başqa yerlərə getmədən ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib. Digər xəstələr də yüksək səviyyədə göstərilən tibbi xidmətdən razı qaldıqlarını bildiriblər.

Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri xəstəxananın həkimlərinə tibbi avadanlıqların prinsiplərini də öyrədiblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi həkim və tibb işçilərinə izah edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# *“Ailə təsərrüfatı məhsulları”* festivalı təsərrüfat sahibləri, sakinlər və turistlər tərəfindən razılıqla qarşılandı



*18-19 noyabr tarixlərində Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalı öz əhəmiyyəti ilə seçilirdi.*

“Ailə təsərrüfatı məhsulları” festivalında iştirak edən bir neçə təsərrüfat başçısı ilə həmsöhbət olduq. Babək rayonunun Qahab kəndindən gəlmiş Rasim İsmayılov festivala qurudulmuş bağayarpağı, qantəpər, nanə, əvəlik, böyrəkotu, kəklikotu, solmazçiçəyi kimi müalicəvi tərkibli bitkilər gətirmişdi. Yüksək zövq və səliqə ilə qablaşdırılmış həmin məhsulların qiyməti də alıcıları razı salmışdı. Öncə belə tədbirin təşkilindən razılığını bildirən təsərrüfat başçısı dedi ki, muxtar respublikamızda belə bitkilər saysız-hesabsızdır. Bunları toplamaqla həm müəyyən xəstəliklərin sağalmasında istifadə edir, həm də qazanc sahibi oluruq. Ancaq onların tədarük olunması, istifadə qaydalarını hamı bilmir. Ona görə də satdığımız belə məhsullar barədə ətraflı məlumat veririk. Tədbirin təşkilatçılarına minnətdarlığını ifadə edən həmsöhbətim onu da bildirdi ki, festival bu işlə məşğul olan kənd adamlarının tanıdılmasında, onların ailə büdcəsinin gücləndirilməsində böyük əhəmiyyət daşıyır.

Füsunkar təbiəti ilə seçilən Ordubad rayonunun yaşayış məntəqələrindən də festivala xeyli məhsul çıxarılmışdı. Həmin rayonun Vənənd kəndindən gəlmiş Yaqut Babayeva festivala məşhur Ordubad paxlavası, şəkərburası və limon gətirmişdi. Piştaxtanın önü alıcılarla dolu idi. Təsərrüfat başçısının sözlərinə görə, Ordubadın brendinə çevrilən belə məhsulların Naxçıvanla yanaşı, ölkəmizin də müxtəlif bölgələrində alıcıları var. Festivalın təşkilindən sonra alıcılarımızın sayının daha da artacağı şəksizdir. Belə tədbirlərin həmişə təşkil olunmasını arzu edirəm.

Şərur rayonunun Düdəngə kənd sakini Qasım İbrahimov, Şahbuz rayonunun Nursu kənd sakini Səyyad Əliyev isə festivala arıçılıq məhsulları ilə gəlmişdilər. Onlar da “Ailə təsərrüfatı məhsulları” festivalının vaxtında təşkil edilmiş tədbirlərdən biri olduğunu, bunun üçün də minnətdarlıqlarını bildirdilər.

Festivala gələn şəhər sakinlərinin də fikri bizim üçün maraqlı idi. Bu məhsul bayramına ailəsi ilə birlikdə qatılan Naxçıvan şəhər sakini Həsən Hacıyev dedi ki, artıq ənənəyə çevrilən belə festivallar hər bir şəhər sakininin ürəyincədir. O və ailəsi buraya həm dadlı, həm də ekoloji təmiz məhsullardan almağa gəlib. Bildirdi ki, son illərdə təşkil olunan kənd təsərrüfatı yarmarkaları və festivallar şəhər sakinlərinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına müsbət təsir göstərir.

Digər şəhər sakini Yusif Həsənovun dediklərindən: – Bu gün Naxçıvanqala torpağı əkib-becərənlərin, məhsul bolluğu yaradanların ixtiyarına verilib. İndi bu məkanda haraya baxsan, alın təri axıdıb, zəhmət çəkən insanların yaratdığı gözəllikləri, rəngarəngliyi görə bilərsən. Qarşıdan qış fəsli gəlir, hər kəs evinə qış nemətləri – turşu, qovurma, əriştə, qurut və başqa ərzaqlar tədarük edir. Sağ olsunlar belə tədbiri təşkil edənləri.

Festivala xarici ölkələrin vətəndaşları da böyük maraq göstərirdilər. Muxtar respublikaya turist səfərinə gəlmiş İran İslam Respublikasının vətəndaşı Məhəmmədrza Nuri dedi ki, ailəsi ilə birlikdə hər il Naxçıvanın gəzməli-görməli yerlərində olur, yaxşı istirahət edirik. Naxçıvan mətbəxi çox zəngin, yeməkləriniz çox dadlıdır. Təbii ki, yeməkləri bu qədər ləziz edən təbii məhsullardır. Buraya gəldiyimiz zaman gördük ki, qədim diyarınızın hər bir guşəsindən buraya məhsul çıxarıb, sərfəli qiymətə satırlar. Həmin məhsulların xüsusi zövqlə qablaşdırılması da diqqətimizi çəkdi. Mən Ordubad rayonuna aid olan pavilyondan çaşır turşusu, limon, cəviz mürəbbəsi aldım. Ümumiyyətlə, Naxçıvanda olarkən o da diqqətimi çəkir ki, bu diyarda məhsul bolluğu ilbəil artır. Bu, məni çox sevindirir. Çünki hər dəfə gələndə daha az xərc çəkərək bu qədim diyarın müxtəlif təamlarından dadmaq imkanı əldə edirəm.







Festivalın ikinci günü isə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Ən yaxşı məhsul” nominasiyası üzrə müsabiqənin nəticələri məlum oldu. Müsabiqədə I yerə layiq görülən təsərrüfat sahibləri ilə görüşdük. Ordubad rayonunun Əlhi kənd sakini Yaşar Həbibov söhbət zamanı bildirdi ki, bu tədbirə o, müxtəlif çeşidlərdə məhsul çıxarmışdı. Kompotlar, mürəbbələr, müalicəvi araqlar, dağ otlarından hazırlanan turşular, xüsusi paketlərdə qablaşdırılmış lobya və digər məhsullara maraq böyük olub. Bundan başqa, ilk dəfə olaraq bu festivalda o, alıcılara qonşu Türkiyədə müalicəvi əhəmiyyətinə görə tanınan və “altın çiyələk” adlanan bu giləmeyvədən hazırlanan mürəbbələr təqdim etmişdi. Çalışacaq ki, dövlətimizin diqqət və qayğısı ilə yaratdığı ailə təsərrüfatı bundan sonra da muxtar respublikanın ərzaq bolluğuna öz töhfəsini versin.

Müsabiqənin daha bir qalibi isə Culfa rayonunun Camaldın kənd sakini Arif Abbasov oldu. Onunla söhbət zamanı dedi ki, uzun müddətdir, üzümçülüklə məşğul olur, bu sahədən əldə edilən məhsullarla ailəsinə gün-güzəran yaradır. Əvvəllər imkanları məhdud olduğundan yalnız bazara üzüm məhsulu çıxara bilirdisə, dövlətimizin ailə təsərrüfatlarına göstərdiyi diqqət və qayğı nəticəsində indi üzümdən hazırladığı məhsulları satışa çıxarır. Təsərrüfat sahiblərinin bazara çıxış imkanlarının get-gedə yaxşılaşması ona ailə təsərrüfatını möhkəmləndirməyə imkan verib.

Bu gün muxtar respublikanın kənd yaşayış məntəqələrində müxtəlif məhsullar hazırlayıb ailə büdcəsinə xeyli kömək edə bilən qadınlarımız çoxluq təşkil edir. Onlardan biri də Şərur rayonunun Aralıq kənd sakini Fərqanə Muxtarovadır. Elə bu işə göstərdiyi böyük həvəs onun festivala dəvət almasına səbəb olub. Piştaxtaya qoyulan məhsullara baxanda da görmək olurdu ki, Fərqanə xanım bu festivala ciddi hazırlaşıb, müxtəlif çeşidlərdə dadlı-tamlı məhsullar çıxara bilib. Təbii ki, onun bu çalışqanlığı qaliblərin seçimində şəffaflığa üstünlük verən münsiflər heyətinin diqqətindən yayınmayıb və o, birincilər sırasında yer alıb. Fərqanə xanım onu da qeyd etdi ki, bu gün dövlətimizin yaratdığı şərait kənddə yaşayan hər kəsi ailə təsərrüfatı sahibi edə bilər. Əsas odur ki, sonu xeyirli olacağına inandığın bir işə başlayıb ona məsuliyyətlə yanaşasan. Həyat yoldaşım Cəfər Muxtarov və mən ailə təsərrüfatı yaratmağımıza peşman deyilik. Festivaldakı uğurum bizə göstərilən diqqət və qayğının, çəkilən zəhmətin bəhrəsidir. Ona görə də düşünürəm ki, bu uğurda dövlətimizin qayğıkeş insanlarının da payı böyükdür. Bu qalibiyyətə görə hər kəsə minnətdarlığımı bildirirəm.

*Beləliklə, son illərdə mədəni-kütləvi tədbirlərin keçirildiyi məkan kimi tanınan “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi növbəti dəfə maraqlı bir festivala şahidlik etdi.*

**Xəbərlər şöbəsi**

# Məktəblilərin tətil günləri maraqlı tədbirlərlə yadda qalıb

***Naxçıvan Muxtar Respublikası Turizm-Diyarşünaslıq Mərkəzi tərəfindən məktəblilərin payız tətili ilə bağlı bir sıra mədəni-kütləvi tədbirlər hazırlanaraq həyata keçirilib. Belə tədbirlərin davamı olaraq uşaq, yeniyetmə və gənc turistlərin 4 günlük istirahət müddəti üçün proqram hazırlanıb.***

Proqram çərçivəsində payız tətilinin birinci günü məktəblilər üçün Əcəmi seyrəngahında Naxçıvan Rəssamlar Birliyinin üzvü, Əməkdar rəssam Həmzə Sadiqov tərəfindən ustad dərsi keçilib.

Rəssam məktəblilərə ustad dərsinin incəlikləri haqqında məlumat verib, müxtəlif janrlar, dünya rəssamlıq inciləri haqda danışıb. Həmzə Sadiqov Açıq Səma Altında Muzeyi seçərək bu muzeydəki eksponatların eskizlərini yaradıb, məktəblilərə bu eskizlərin tabloya köçürülməsi qaydaları haqqında məlumat verib. O, gənc turizm həvəskarlarına rəngkarlığın sirləri, əsərin işlənmə texnikası barədə də danışıb. Burada məktəblilər öyrəniblər ki, əvvəlcə bütöv obyektlərin və fonun rənglənməsi, kompozisiya bitdikdən sonra isə əsərin kiçik elementlərinin işlənilməsi vacibdir. Turizmə həvəs göstərən uşaqların mənzərə janrında rəsmlər çəkməyi öyrənmələri məqsədəuyğundur.

Sonra Həmzə Sadiqov ustad dərsi zamanı çəkdiyi tablonu muxtar respublika Turizm-Diyarşünaslıq Mərkəzinin üzvlərinə hədiyyə edib. O, əminliyini bildirib ki, bu dərsdən sonra uşaqlar rəssamlıq sənətinə, ümumilikdə isə incəsənətə daha çox maraq göstərəcəklər.

Turizm-Diyarşünaslıq Mərkəzinin direktoru Murad Babayevdən aldığımız məlumata görə, tətil günlərində dərnək üzvləri Naxçıvan şəhərindəki görkəmli şəxsiyyətlərin xatirəsinə ucaldılan abidələrlə tanış olub, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında bir-birindən maraqlı tamaşalar izləyiblər. Bundan başqa, gənc turizmsevərlərin qədim və müasir memarlıq inciləri ilə tanış olması üçün Naxçıvan şəhərində gəzintilər təşkil olunub, onlar tərəfindən muzeylərimizin ziyarət olunması təmin edilib. Tətil günlərinin sonunda isə məktəbli turizm həvəskarlarına təəssüratları ilə bağlı inşa yazılar, esselər yazılması həvalə edilərək bu yazılardan ən yaxşısının müəllifi rəsm ləvazimatı ilə mükafatlandırılıb.

Noyabr ayının 16-dan başlayaraq Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi tərəfindən uşaqlarda təbiətsevərlik, təbii sərvətlərə qayğı hisslərinin formalaşdırılması məqsədilə ekskursiya və ekspedisiyalar təşkil edilib. Tətilin birinci günü məktəblilər Naxçıvan şəhərindəki “Böyük bağ”da, Əcəmi seyrəngahında, “Naxçıvanqala” Tarix Memarlıq Muzey Kompleksində, Hüseyn Cavidin ev-muzeyində və Xalça Muzeyində olublar. Adıçəkilən yerlərdə uşaqlara hərtərəfli məlumat verilib, onların Naxçıvan şəhərinin görməli yerləri haqqında fikirləri öyrənilib.

**✍ Nail ƏSGƏROV**

# Güləş birinciliyi keçirilib

*Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi yeniyetmələr arasında sərbəst güləş üzrə birinciliyə yekun vurulub.*

Yarışda 8 çəki dərəcəsində 40-dan artıq yeniyetmə idmançı mübarizə aparıb. Yekun nəticədə Suat Məmmədov, Ayxan Bağırov, Məmməd Cabbarov, Əmrə Ağayev, Uğur İsmayılov, Məhəmmədəli Rəsulov, Nihad Ramazanov və Murad Abdullayev müvafiq olaraq 23, 26, 29, 32, 35, 38, 46 və 58 kiloqram çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək baş mükafatı qazanıblar.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikası üzrə 20 noyabr 2017-ci il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 4450,0 | 4318,0 | 132,0 |
| 2. | Babək rayonu | 7124,0 | 4824,0 | 2300,0 |
| 3. | Ordubad rayonu | 1090,0 | 635,0 | 455,0 |
| 4. | Culfa rayonu | 4091,0 | 3415,0 | 676,0 |
| 5. | Kəngərli rayonu | 3657,0 | 1856,0 | 1801,0 |
| 6. | Şahbuz rayonu | 879,0 | 861,0 | 18,0 |
| 7. | Sədərək rayonu | 1410,0 | 1060,0 | 350,0 |
| 8. | Naxçıvan şəhəri | 713,5 | 605,0 | 108,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **23414,5** | **17574,0** | **5840,5** |

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 947